**UOT 346· 32 (479·24)**

**Hümeyrə MUSTAFAYEVA**
fəlsəfə *ü. f. d., dosent*
*Azərbaycan Dövlət İqtisad niversiteti*

# TƏLƏBƏ GƏNCLƏR: GƏLƏCƏK HAQQINDA DÜŞÜNCƏLƏR*

Müasir şəraitdə tələbə gənclərin gələcək barədə düşüncələrinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Əvvəla, cəmiyyətdə gedən, bütün dünyanın marağına səbəb olan iqtisadi, sosial-siyasi və sosial-mədəni proseslər tələbələrin üzləşdikləri problemlərə ciddi diqqət yetirməyi tələb edir. Çünki bugünkü tələbə sabahın – gələcəyin mütəxəssisidir. Deməli, tələbə gənclərin cəmiyyətdəki quruculuq proseslərində çox təsirli fəal qüvvə kimi çıxış etmələri ölkəmizin simasını əhəmiyyətli dərəcədə dəyişdirəcəkdir. İkincisi, yeni sosial-iqtisadi situasiya tələbə gənclərin öz müstəqil əmək həyatını, gələcək barəsində planlarını sosioloji cəhətdən təhlil etməyi, müəyyən proqnozlar işləyib hazırlamağı zərurətə çevirir. Tələbə gənclərin sərvət yönümləri necədir, onlar necə və hansı istiqamətdə dəyişir, yeniləşir – bütün bunlar təkcə elmi-nəzəri deyil, həm də praktik məna kəsb edir. Üçüncüsü, tələbələr müxtəlif sosial-siyasi yönümlü birliklərdə (həm formal, həm də qeyri-formal) ciddi sosial maraq doğuran fəaliyyətlə məşğuldurlar. Onların bir qismi öz gələcək işini, karyerasını, irəliləyişini məhz bu birliklərlə əlaqələndirirlər. Ona görə də tələbə gənclərin bu spesifik, zəngin fəaliyyəti sosioloji baxımdan araşdırılmalı, onların sağlam istiqamətdə yetkinləşməsinin mümkün yolları axtarılmalıdır. Ümummilli liderimiz vaxtilə qeyd edirdi ki, «müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir» (1, s. 121).

Yeri gəlmişkən qeyd edək ki, sosiologiya gəncləri spesifik sosial-demoqrafik qrup kimi öyrənərkən bu sosial birliyin şüurunu, davranışını, sosiallaşma xüsusiyyətlərini, yaşlı nəsillə varisliyi və qarşılıqlı təsiri prosesini, ictimai problemlərin həllində novatorluq dərəcəsini, səviyyəsini və formalarını təhlil edir. Gənclərin sosiologiyasının müstəqil sahə kimi təsbiti Varnada (Bolqarıstan) keçirilən VII Beynəlxalq Sosiologiya Konqresində (1970-ci il) olmuşdur. O zaman xüsusi tədqiqat komitəsi yaradılması barədə qərar qəbul edilmişdi. Bu qərar o demək idi ki, elmi biliyin məlum sahəsində həm nəzəri, həm də tətbiqi xarakterli informasiyanın ciddi şəkildə toplanması baş vermişdir. Gənclərin, o cümlədən tələbə gənclərin sosial problemlərinin ən müxtəlif aspektlərdə hərtərəfli araşdırılması dünya sosiologiya elminin ən fəal şəkildə işlənib hazırlanan istiqamətlərindən birinə çevrilmişdir. Buna, zənnimizcə, xüsusən 1960-cı illərin sonundan etibarən bir sıra ölkələrdə gənclərin kütləvi çıxışları da ciddi təsir göstərmişdir. Gənclər hərəkatı, gəncliyin submədəniyyəti, əmək, sosial-siyasi, mənəvi-idraki fəallığı, gənclərin müstəqil əmək həyatına qədəm qoyması, sərvət yönümlərindəki dəyişikliklər, qeyri-formal birlikləri, sosial-psixoloji xüsusiyyətləri və s. kimi məsələlər xüsusi olaraq təhlil edilmişdir. Əslində gənclərin sosiologiyası həmin qrupun çoxaspektli elmi tədqiqatları kontekstinə üzvi şəkildə qoşulmuşdur, lakin öz predmetinə və metodlarına görə onlardan fərqli xüsusiyyətlərə də malikdir. Məlum olduğu kimi, gənclərin bir sıra problemləri öz mahiyyətinə görə aralıq mövqe tutur; bu, həmin problemlərin müxtəlif bilik sahələri tərəfindən birgə öyrənilməsinə əsas verir, lakin konkret sosioloji tədqiqat materialları ilə əldə edilən informasiyadan istifadə etməklə onların düşüncələr aləmini araşdırmağın əhəmiyyətini azaltmır.

* Məqalə tarix ü.e.d., prof. Vəkil Həsənov tərəfindən çapa məsləhət görülüb.

Adətən tələbə gənclər dedikdə ali məktəb tələbələri ilə yanaşı, orta ixtisas məktəblərində (texnikumlarında) təhsil alan gəncləri də nəzərdə tuturlar. Lakin biz başlıca diqqəti ali məktəblərdə əyani təhsil alan gənclərin düşüncələri, gələcək barəsindəki mülahizələri üzərində cəmləşdirmişik. Ali məktəb həyatı əslində tələbələr üçün fəal mənəvi-intellektual axtarışlar dövrüdür.

Araşdırmalar göstərir ki, gənclərin mənəvi aləmi zənginləşdikcə onlar daha dürüst seçimlər etməyə çalışır, cəmiyyətin, dünya inkişafının ən müxtəlif məsələləri barəsində özlərinin maraqlı, orijinal, düşündürücü mülahizələrini bildirirlər. Bu, ciddi nikbinlik doğuran ümdə məqamlardan biridir. Ümummilli liderimiz H.Ə.Əliyev respublika Gənclərinin I forumundakı çıxışında qeyd etmişdir ki, gənclərin qaldırdıqları problemlərin «bir qisminin həllinin indi mümkün olmaması aydındır, ancaq iş burasında deyil, iş orasındadır ki, gənclər düşünürlər, gənclər fikirləşirlər, gələcək haqqında düşünürlər, təkliflər irəli sürürlər» (2, s. 312).

Respublikamızın müxtəlif ali məktəblərində, o cümlədən Azərbaycan Dövlət İqtisad Universitetində aparılmış sosioloji sorğular sübut edir ki, tələbə gənclər Dağlıq Qarabağ münaqişəsinin həllini, ölkənin daha qüdrətli olmasını, əhalinin bütün təbəqələri üçün normal həyat və fəaliyyət şəraitinin qərarlaşmasını, indiki siyasi kursun uğurla davam etdirilməsini daha önəmli hesab edirlər. Bu o deməkdir ki, gənclərimiz respublikamız üçün mühüm həyati əhəmiyyətli ideallara üstünlük verirlər: ölkənin təminatlı gələcəyi onların həyat planlarının reallaşdırılması üçün başlıca təməl, zəmin hesab edilir.

Tələbə gənclərimizin mütləq əksəriyyəti üçün şəxsi planda da diqqəti cəlb edən sosial-mədəni yönümlü məsələlərə xüsusi diqqət yetirilir. Təhlil göstərir ki, müstəqil həyata qədəm qoymaq, işləmək və uğurlu ailə qurmaq arzusu gənclərimizin ciddi qayğısıdır. Lakin onlar müstəqil həyatın təminatlı olmasını istəyirlər (ən azı 500 manat civarında maaş olmasını vacib sayırlar).Tələbə gənclərimiz əsasən öz ixtisasları üzrə dövlət sektorunda – hökumət idarələrində işləmək arzusunu ifadə ediblər. Maraqlı bir məqamı da qeyd etmək yerinə düşər: tələbə gənclərin bir qismi dərs vaxtı ilə üst-üstə düşməyəcəyi təqdirdə oxumaqla yanaşı, münasib yerlərdə işləməyə üstünlük verirlər. Sorğuda iştirak edənlərin bir qismi təhsil almaqla yanaşı işləməyi ailə vəziyyəti ilə əlaqədar zəruri addım kimi izah ediblər. Fikrimizcə, həm oğlanların, həm də qızların təminatlı iş arzusu onların özünütəsdiq yolları axtarışında olmalarını təsdiqləyir.

Tələbə gənclər gələcək haqqında düşüncələrində əxlaqi və estetik dəyərlərə xüsusi diqqət yetirirlər. Əxlaqi dəyərləri və tələbatları müəyyən edən bir sıra suallara verilən cavablar göstərir ki, onların rəhbər tutduqları əxlaqi normalar mövcud reallıqlara, adət-ənənələrə uyğundur. Məsələn, mərhəmət hissi, sadəlik, xeyirxahlıq, səmimilik, təvazökarlıq, geyimdə və davranışda müasirlik, xoş ünsiyyət və s. onların rəğbət göstərdiyi xüsusiyyətlərdir. Tələbə gənclərin qənaəti belədir ki, ölkədə iqtisadi islahatlar davam etdirilməli, işlə təminat problemi özünün daha əsaslı həllini tapmalıdır.

Tələbələr həm indi, həm də gələcəkdə təhsilə, xüsusən ali təhsilə ciddi münasibət bəslənilməsinin tərəfdarıdırlar. Onlar ali təhsil prosesində bir sıra məqamları ön plana çəkirlər: gənclərlə müəllimlərin ünsiyyətinin yaranması və davamlı olması; müəyyən biliklərə yiyələnmək imkanlarının artırılması; müəllimlərin daha səriştəli, bilikli, demokratik olması; təhsildə sui-istifadə hallarına son qoyulması; bəzi tələbələrin tədrisə və elmə ciddi maraq göstərməməsinə, bəzi müəllimlərin isə laqeydliyinə prinsipial münasibət bəslənilməsi; dərsliklərlə, dərs vəsaitləri ilə tam təminatın olmasına daha ciddi diqqət yetirilməsi; informasiya əldə etmək imkanlarının yaxşılaşdırılması; tədris və istehsalat praktikalarının daha səmərəli təşkil edilməsi; tədrisin səviyyəsinin yüksəldilməsi, qiymətləndirmədə qeyri-obyektivlik, ədalətsizlik hallarına son qoyulması (3, s.190).

Müəyyənləşdirilmişdir ki, gənc qızlar və oğlanlar yalan danışanda, kiminsə xatirinə dəyəndə vicdan əzabı çəkirlər. Onlar ağılsız addım atılmasını, xəyanəti, kiminsə pisliyini istəməyi və ya kiməsə pislik etməyi, düşmən qarşısından qaçmağı, haqsızlıq müqabilində susmağı və s. əməlləri xüsusilə pisləmişlər. Tələbələr eyni zamanda unutqanlığı, paxıllığı, rüşvətxorluğu, yaltaqlığı, ikiüzlülüyü, birliyin olmamasını mənfi keyfiyyətlər kimi qeyd etmişlər.

Estetik maraqları və tələbatları müəyyənləşdirərkən məlum olmuşdur ki, tələbə gənclər həm zahiri görünüşü, həm də daxili aləmi ifadə edən əlamətlərə ciddi diqqət yetirirlər. Cavablardan görünür ki, onlar zahiri cəhətləri həlledici hesab etmirlər, daxili aləmini qiymətləndirməkdə daha diqqətlidirlər.

Estetik duyumu aşkarlamaq istərkən məlum olmuşdur ki, musiqi həm indi, həm də gələcəkdə gənclərimizin həyatının ayrılmaz tərkib hissəsidir. Tələbə gənclər bildirmişlər ki, onlar öz həyatını musiqisiz təsəvvür etmirlər. Onların cavablarında tez-tez «Ruhumu oxşayır», «Həyəcanlandırır», «Sakitləşdirir», «Əla hisslər oyadır», «Çox yaxşı təsir bağışlayır», «Mənəvi qidamdır» ifadələri tez-tez təkrarlanır. Lakin qeyd etməylik ki, rəyi soruşulanlardan cəmi 3 nəfəri «O qədər də ciddi təsir göstərmir», 2 nəfəri isə «Pis təsir edir» dedikdə hədsiz dərəcədə həyəcanlanma nəzərdə tutulur. Lakin bu da mümkündür ki, həmin şəxslərin estetik tərbiyəsi qüsurludur.

Qeyd etmək lazımdır ki, tələbə gənclərin gələcək haqqındakı planlarında mənəviyyat və estetika problemlərinə yer ayırması, qazanılacaq uğurları onlarla əlaqələndirməsi diqqətəlayiq cəhətdir.

Maraqlıdır ki, tələbə gənclər gələcək haqqında düşüncələrində uğur qazanmaqla yanaşı, səadətə çatmaq məsələsinə də xüsusi əhəmiyyət verirlər. Lakin unutmaq olmaz ki, «uğur qazanmaq xoşbəxt olmaq demək deyildir. İnsan uğur qazanar, cəmiyyət içində tutmaq istədiyindən də üstün yerə çatar, ancaq yenə də xoşbəxt olmaya bilər. Sərvətin, hakimiyyət və şöhrətin son həddinə yüksəlmiş neçə-neçə insanlar var ki, içi daim səadət dünyasının həsrətilə yanıb-yaxılır…. Səadət tamamilə könül işidir və öz daxilimizdədir. Onu içimizdən başqa bir yerdə aramaq və səadəti sırf sərvət, hakimiyyət və şöhrətdə görmək səhrada ilğımı su sanmaq kimidir. Bununla bərabər, səadətin yolu uğur yolundan ayrı da deyildir. Və səadət ölkəsi uğur diyarından bir qədər irəlidədir» (4, s.15).

Yeri gəlmişkən qeyd edək ki, məşhur yunan filosofu Aristotel əslində xoşbəxtliyi insan fəaliyyətinin məqsədi kimi izah edirdi: «Hər bir insanın ayrılıqda və bütün insanların hamısının məlum bir məqsədinin olduğunu demək olar. İnsanlar ona çatmaq üçün bəzi şeyləri seçir, digərlərindən isə yan keçirlər; bu məqsəd, qısa sözlə desək, xoşbəxtlikdir» (5, s. 23).

Diqqətçəkən məqamlardan biri tələbə gənclərin gələcək irəliləyişləri, uğurları öz şəxsi keyfiyyətləri ilə əlaqələndirmək səyləridir. Bu halda iki məqam daha çox vurğulanır: ifadəli olmaq, ağıllı və tərbiyəli olmaq. İradə canlı orqanizmlər zəncirinin yüksək halqasını təşkil edən insana məxsus bir qüdrət və imtiyazdır. İradə, eyni zamanda insanları bir-birindən ayıran və onlar arasında üstünlük və aşağılıq fərqləri yaradan güclü mənəvi qüvvədir. İnsanlar öz üstünlükləri üçün ilk növbədə iradələrinə borcludurlar. İradəli olmaq sadəcə maddi və ictimai mənada bir uğurun deyil, xoşbəxt olmağın da əsas şərtidir. Xoşbəxtlik iradə gücü ilə əldə edilə bilən bir keyfiyyətdir. İradəli olmaq üçün zəif də olsa, daim yaxşılığa və kamala doğru irəliləmək zəruridir. İradəli olmaq əməl və hərəkətlərin yaxşısını seçib onun yerinə yetirilməsinə səy göstərməkdir. İradəlilik ağlın, tərbiyənin fəal imkanları ilə birləşdikdə daha qüdrətli olur, daha ciddi irəliləyişi təmin edə bilir.

Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün başlıca məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılı olacaqdır. Ölkə əhalisinin böyük əksəriyyətinin gənclər

olması və onların bütün sahələrdə çalışması və iştirakı Azərbaycanın gələcək inkişafında gənclərin rolunun böyük olmasına sübutdur.

Gənclərin həyat və fəaliyyətində, düzgün istiqamətlər seçməsində «Dövlət gənclər siyasəti haqqında» Azərbaycan Respublikası Prezidentinin 29 iyul 1999-cu il Fərmanı, müstəqil ölkəmizin Gənclərinin I Forumunun (2 fevral 1996-cı il) keçirilməsi müstəsna əhəmiyyət kəsb edir. Belə ki, gənclərlə iş nəzərə çarpacaq dərəcədə güclənmiş, keçilmiş yol diqqətlə araşdırılmış, gənclərlə bağlı problemlərin həlli istiqamətində fəal axtarışlar güclənmiş, gənclərin forumlarının keçirilməsi ənənəsi, əsaslı diskussiyaların aparılması özünün konkret bəhrəsini vermişdir. Təkcə görülmüş işlərə yekun vurulmamış, həm də müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə düşən mühüm vəzifələr müəyyənləşdirilmiş, dövlət orqanlarının, müvafiq təşkilatların diqqəti gənclik problemlərinin həllinə yönəldilmiş, ciddi tövsiyələr hazırlanmış və uğurla reallaşdırılmışıdır. Heydər Əliyev kursunun yaradıcı davamçısı olan İlham Əliyevin gənclərin həyatına, fəaliyyətinə, problemlərinin həllinə göstərdiyi qayğı təkcə respublikamızda deyil, bütün dünyada etiraf edilir. Həmin qayğının nəticəsidir ki, gənc nəslin hüquqlarının müdafiəsi, mənəvi tərbiyəsi, fiziki inkişafı, beynəlxalq qurumlarda iştirakı sahəsində əsaslı addımlar atılmış, gənclərin quruculuq proseslərində real töhfələri çoxalmışdır.

Prezident İlham Əliyevin apardığı siyasət iqtisadi potensialımızı, iqtisadi gücümüzü artırmaq və bu gücü, ilk növbədə, Azərbaycan gəncliyinin təhsilinin inkişafına yönəltmək siyasətidir. Artıq Azərbaycanın bu sahələrdə nümunə ola biləcək uğurları vardır.

Azərbaycan MDB məkanında yeganə ölkədir ki, şagirdlərin dərsliklərlə təminatı dövlət hesabınadır. Yəni ölkəmizin hər bir şagirdinə dərsliklər pulsuz olaraq verilir.

Həmçinin Azərbaycan nəinki ölkəmizdə, o cümlədən xarici ölkələrdə yaşayan soydaşlarımızın dərslik problemini öz üzərinə götürmüşdür.

Dərslik təminatından əlavə vurğulamaq lazımdır ki, xüsusi Prezident Sərəncamı ilə latın qrafikasında dünya və Azərbaycan şair və yazıçılarının əsərlərindən ibarət xüsusi kitabların yenə də pulsuz olaraq bütün məktəblərin kitabxanalarına verilməsi bu sahədə olan boşluğun aradan qaldırılmasında əvəzsiz rol oynamışdır.

Azərbaycan gəncliyinin gücü təkcə bilik cəhətdən deyil, fiziki cəhətdən də güclü olmalıdır. Bu səbəbdən bütün dünya ölkələri üçün nümunə ola biləcək bədən tərbiyəsi və idman siyasəti bu vəzifələrin yerinə yetirilməsinə xidmət edir.

Məhz cənab İlham Əliyevin diqqət və qayğısı nəinki şəhər və rayonlarımızda, hətta ucqar kəndlərimizdə idman qurğularının tikilməsi, yeniləşdirilməsi ümumxalq, ümumi dövlət işinə çevrilmişdir. Əgər Azərbaycan son olimpiadalarda 200 dövlət içərisində stabil olaraq ilk 30 dövlətin içərisində yer alırsa, əgər Azərbaycan bu yarışlarda 1 milyard əhalisi olan Hindistan, Braziliya kimi ölkələri geridə qoyursa, bu siyasətin qələbəsinin bariz nümunəsidir.

1988-1993-cü illərdə respublika səviyyəli idman yarışları keçirə bilməyən Azərbaycan bu gün dünya, Avropa və digər beynəlxalq yarışları ən yüksək səviyyədə keçirir.

Prezident İlham Əliyevin ümumtəhsil müəssisələrinin müasir kompyüterlərlə təmin edilməsi sahəsində imzaladığı proqram ümumilikdə bütün ölkənin bu sahədə sıçrayışlı inkişafına təkan verdi.

Azərbaycanda məktəb tikintisi, məktəblərin təmiri, məktəblərin məktəb avadanlıqları ilə təminatı üçün aparılan məqsədəuyğun siyasət onunla nəticələnmişdir ki, təkcə 10 ildə 3000-dən artıq yeni məktəb tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir. 2018-ci ildə 17 məktəbin təmiri nəzərdə tutulur ki, bu siyasətin davam etdirilməsi Azərbaycanda bir təmirsiz məktəbin olmamasına şərait yaradacaqdır.

Azərbaycanlı tələbələrin təqaüdlərinin artırılması, doktorantlara xüsusi qayğının göstərilməsi bir daha gənc alimlərin elmə olan həvəsini gücləndirmək məqsədini daşıyır.

Son illərdə 900 mindən artıq iş yerlərinin açılması, iri sənaye müəssisələrinin yaradılması, kiçik və orta biznesin inkişafı, ilk növbədə, gəncliyin bu sahədə fəallıqlarına təkan verir, yaradılan iş yerlərində isə əsasən gənclərin işləmələri, fəaliyyət göstərmələri üçün şərait yaradılır. Bu gün Azərbaycan gəncləri vətənpərvər ruhda yetişirlər. Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır.

Gənclərin mahiyyətli xarakteristikalarının keyfiyyət dəyişmələrinin təbiətini başa düşmək üçün bu sosial-demoqrafik qrupun inkişafının əsasını təşkil edən obyektiv ziddiyyətlərin mahiyyəti açıqlanmalıdır. Gənclər cəmiyyətin bir hissəsi olmaqla onun bütün rəngarəng əlaqə və münasibətlərinə qoşulmuşlar. «Gənclərin sosial inkişafı (yetkinliyi) səviyyəsi barəsində ən ümumi formada məlum konkret nəsildə sosial-tarixi bütövlüyün təkrar istehsalı dərəcəsinə görə mühakimə yürütmək olar. Sabit cəmiyyət şəraitində sosial təcrübənin faktik surətdə ötürülməsi baş verir. Bu halda gənc nəsil onun sosial strukturunu bir bütövlük kimi reproduksiya edir, məlum struktur isə öz əsası etibarilə bütöv sosial-demoqrafik qrup kimi gənclərin mühitində əks olunur» (6, s. 244).

Tələbə gənclərə dair araşdırmalar göstərir ki, sosial mənşə, sosial qrupa mənsubluq onların həyat yoluna güclü təsir göstərir. Bu, onların dünyagörüşünün məzmununda, deməli, həyat planlarında dərin iz buraxır. Elə bir mürəkkəb şəxsiyyət keyfiyyəti tapmaq çətindir ki, o, sosial və mühit amillərindən asılı olmasın. Həmin amillər sırasına aşağıdakıları aid etmək olar:

-valideynlərin sosial mənşəyi, məşğələlərinin növü və təhsil səviyyəsi;

-sosial-ekoloji mühitin xüsusiyyətləri, o cümlədən yaşayış məntəqəsinin tipi;

-ailənin tərkibi, strukturu və maddi vəziyyəti;

-gəncin özünün sosial vəziyyəti, məşğələləri və s.

Yeri gəlmişkən qeyd edək ki, müxtəlif nəsilləri müqayisə etmək çətindir. Hər bir nəsil özündə ən müxtəlif adamları birləşdirir. Bundan əlavə, insanlar öz vərdişlərini və zövqlərini mütləqləşdirməyə meyillidirlər. Ona görə də yaşlı nəslə mənsub adamların bir qismində zahiri, ikinci dərəcəli xüsusiyyətlər ön plana keçir. Hər bir nəsil əvvəlki nəslin özülü üzərində yüksəlir, lakin bu varisliyi heç də həmişə dərk etmir. Unutmaq olmaz ki, nəsillərin varisliyi hökmən yüksələn xətlə getmir. Bəzən bu prosesdə təbii münasibət, tarazlıq pozulur, nəsillərin üzvi varisliyi təhrif olunur.

Sovet hakimiyyəti dövründə əsaslı səhvlərdən biri ondan ibarət idi ki, şəxsiyyətin müəyyən keyfiyyətlər yığımı işlənib hazırlanırdı və qeyd edilirdi ki, o, «kommunizmin gənc qurucularının» ideal modelinə uyğun olmalıdır. Lakin bu halda həmin modellərin reallığa uyğun olub-olmamasına diqqət yetirilmirdi. Gəncləri çox zaman yalnız tərbiyənin obyekti kimi nəzərdən keçirirdilər, ona sosial həyatın fəal subyekti kimi yanaşmırdılar. Bu həm orta təhsil, həm də ali təhsil müəssisələrində ciddi problemlər yaradırdı. Yeknəsəklik, eynifikirlilik, eynitərzlilik tərbiyəsi sosial cəhətdən yetkin şəxsiyyətin formalaşmasına kömək etmirdi.

Müstəqillik, demokratiyanın inkişafı, gənclərin, o cümlədən tələbə gənclərin sərbəst, azad, müstəqil şəkildə öz fikirlərini ifadə etməsi onların öz problemlərini həll etmək yollarını axtarmasına şərait yaratmışdır (bu, əslində çox ciddi sosial-mədəni irəliləyişdir, nailiyyətdir). «Formalizm, ştamp, standart artıq aradan götürülməkdədir… Gənclər həyata, gələcəyə çox nikbinliklə baxırlar, yaşamaq, yaratmaq əzmindədirlər, böyük problemlər irəli sürürlər… Həqiqətən müstəqil Azərbaycanın gələcəyini düşünürlər» (2, s. 312).

Ulu öndərin bu sözləri nəzərdən keçirdiyimiz problemin mahiyyətli xarakteristikasını tam dolğunluğu ilə əks etdirir.

**Açar sözlər:** *tələbə gənclər, gələcək haqqında planlar, mikromühit, milli-mənəvi dəyərlər, milli kimlik, mifyaratma, müstəqil inkişaf.*

**İstifadə olunmuş ədəbiyyat**


1. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001.
2. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi. Bakı, 2003.
3. Müasir sosial-siyasi dəyişikliklər kontekstində gender təhsilinin inkişafı. Elmi-praktik konfransın materialları. Bakı, 2004.
4. Əli Fuat Başgil. Gənclərlə üz-üzə. Bakı, 1999.
5. Aristotel. Ritorika. Bakı: «Turan Nəşrlər evi», 2008.
6. Тощенко Ж.Т. Социология. Общий курс. М, 2001.


**Умейра МУСТАФАЕВА**

**СТУДЕНЧЕСКАЯ МОЛОДЕЖЬ: РАЗМЫШЛЕНИЯ О БУДУЩЕМ**

**Резюме**

В статье рассматриваются некоторые проблемы студенческой молодежи как существенной составной части молодежи в целом, в частности, их основные представления о собственном будущем. С этой целью изучены материалы различных социологических исследований, сделаны необходимые обобщения. Автор делает о том, что студенческая молодежь республики настроена оптимистично и верит в будущее.

**Ключевые слова**: *студенческая молодежь, планы о будущем, микросреда, национально-духовные ценности, национальная идентичность, мифотворчество, самостоятельное развитие.*

**Humeyra MUSTAFAYEVA**

**STUDENTS YOUTH: THOUGHTS ABOUT THE FUTURE**

**Summary**

In the article, student youth is viewed as a very important group of young people, analyzing the main spectrum of their thoughts about the future. In this case, various conditional sociological research materials are applied, and some generalizations are made on the basis of their information. It is noted that the students of the republic demonstrate confident and optimistic positions towards the future as a whole.

**Keywords:** *student youth, plans for the future, microspirit, national-spiritual values, national identity, emancipation, independent development.*